AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpnews.az
www.olimpiyadunyasi.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*

*№58 (1328), 30 sentyabr - 2 oktyabr 2017-ci il*

*Qəzet 2001-ci ildən çıxır.*




## Azərbaycan Prezidenti İlham Əliyev Milli Olimpiya Komitəsinin 25 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə iştirak edib

Sentyabrın 29-da Heydər Əliyev Mərkəzində Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) yaranmasının 25 illik yubileyi münasibətilə təntənəli mərasim keçirilib.

Azərbaycan dövlətinin başçısı, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri mərasimdə iştirak ediblər.

Yubiley mərasiminin iştirakçıları Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı hərarətlə qarşıladılar.

Dövlətimizin başçısı, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev mərasimdə nitq söylədi.

**Prezident İlham ƏLİYEVİN nitqi**

- Hörmətli xanımlar və cənablar.

Əziz dostlar.

Bu gün biz Milli Olimpiya Komitəsinin 25 illiyini qeyd edirik. Bugünkü mərasimdə Azərbaycanın idman ictimaiyyətinin nümayəndələri, xarici qonaqlar iştirak edirlər. Fürsətdən istifadə edərək, bugünkü mərasimdə iştirak etmək üçün ölkəmizə gəlmiş Avropa Olimpiya Komitələrinin nümayəndələrini xüsusi salamlayıram.

*(ardı 2-ci səhifədə)*

## Prezident İlham Əliyev Avropa Olimpiya Komitəsinin, beynəlxalq idman təşkilatlarının və xarici Milli Olimpiya komitələrinin rəhbərlərindən ibarət nümayəndə heyətini qəbul edib



Sentyabrın 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Milli Olimpiya Komitəsinin 25 illik yubiley tədbirində, Bakıda keçirilən Avropa Olimpiya Komitələri İcraiyyə Komitəsinin iclasında, MDB, Baltikyanı ölkələr və Gürcüstan Milli Olimpiya komitələrinin regional forumunda iştirak etmək üçün ölkəmizə səfərə gələn Avropa Olimpiya Komitələrinin, beynəlxalq idman təşkilatlarının və xarici Milli Olimpiya komitələrinin rəhbərlərindən ibarət nümayəndə heyətini qəbul edib.

Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV görüşdə çıxış edərək dedi:

- Mən Azərbaycan Milli Olimpiya Komitəsinin yaradılmasının 25-ci ildönümünü bizimlə birlikdə qeyd etmək üçün Azərbaycana təşrif buyurmuş Avropa Olimpiya ailəsindən belə böyük nümayəndə heyətini görməyə çox şadam. Bildiyimə görə, bu gün sizin öz görüşləriniz də var. İcraiyyə Komitəsinin yenidən Bakıda bir araya gəlməsi məni məmnun edir. Mən uzun illər bundan əvvəl Avropa Olimpiya Komitələrinin İcraiyyə Komitəsinin iclasının burada keçirildiyini xatırlayıram. Bu, təxminən 20 il bundan əvvəl olub. Bu, Azərbaycanın Avropa idman tədbirlərində fəal iştiraka sadiq olduğunu nümayiş etdirir. Yəqin siz də bilirsiniz ki, hazırda Azərbaycan mühüm idman tədbirinə - qadınlar arasında voleybol üzrə Avropa çempionatına ev sahibliyi edir.

*(ardı 3-cü səhifədə)*

# Azərbaycanın millisi Almaniya yığmasını məğlub edərək Avropa çempionatının yarımfinalına yüksəlib

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva komandamızın oyununa baxıblar

***Sentyabrın 29-da qadın voleybolçular arasında Avropa çempionatının dörddəbir final mərhələsində Almaniya yığması üzərində inamlı qələbə qazanan Azərbaycan milli komandası yarımfinala yüksəlib.***

***Milli Gimnastika Arenasında keçirilən qarşılaşmada qadın voleybolçularımız 3:0 hesabı ilə qələbə qazanıblar.***



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Azərbaycan və Almaniya voleybolçularının oyununa baxıblar.



Milli komandamız birinci setin əvvəlində hesabda geri olmasına baxmayaraq, yüksək əzmkarlıq nümayiş etdirərək qalib gəlib - 25:20. Görüşün ikinci setində Azərbaycan yığması əldə etdiyi üstünlüyü sona qədər qoruyub saxlayaraq, böyük fərqlə qələbə qazanıb - 25:18. Qarşılaşmanın üçüncü seti də inamlı oyun nümayiş etdirən voleybolçularımızın qələbəsi ilə başa çatıb - 25:21.

Beləliklə, dörddəbir finalda Almaniya millisini 3:0 hesabı ilə məğlubiyyətə uğradan Azərbaycan komandası Avropa çempionatının yarımfinalına vəsiqə qazanıb.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva milli komandamızın qələbəsini alqışlayıblar.

Azərbaycan voleybolçuları yarımfinalda Niderland millisi ilə mübarizə aparacaqlar.

Qeyd edək ki, Azərbaycan milli komandası Avropa çempionatının "A" qrupunda keçirdiyi sonuncu görüşdə də Almaniya yığması ilə qarşılaşmışdı. Həmin matçda voleybolçularımız 3:1 hesabı ilə qalib gəlmişdilər.



## Bakıda MDB və Baltikyanı ölkələrin, Gürcüstan Milli Olimpiya komitələrinin forumu işə başlayıb

Beynəlxalq Olimpiya Komitəsinin "Olimpiya Həmrəyliyi" proqramı çərçivəsində keçirilən tədbirə 15 ölkənin Milli Olimpiya Komitəsini təmsil edən 50-yə yaxın nümayəndə qatılıb.

Forumun açılışında çıxış edən Avropa Olimpiya Komitəsinin icraçı prezidenti Janez Koçijançiç Azərbaycanda idmanın inkişafına göstərilən dövlət qayğısını yüksək qiymətləndirib. Ölkəmizin zəngin idman ənənələrinə sahib olduğunu deyən J.Koçijançiç forumda maraqlı mövzuların müzakirə olunacağını diqqətə çatdırıb.

*(ardı 3-cü səhifədə)*

*Olimpizm*

### BOK-un 132-ci sessiyası Pxençxanda keçiriləcək

2026-cı ildə keçiriləcək qış Olimpiya Oyunlarına ev sabibliyi edəcək şəhərin adı 2019-cu ilin sentyabr ayında İtaliyanın Milan şəhərində açıqlanacaq. Bu barədə qərar Beynəlxalq Olimpiya Komitəsinin (BOK) Limada keçirilən 131-ci sessiyasında verilib.

Olimpiada-2026 uğrunda Syon (İsveçrə), Lillihamer (Norveç), Kalqari (Kanada) və İnsbruk (Avstriya) şəhərləri mübarizə aparırlar.

Məlumat üçün bildirək ki, BOK-un növbəti, 132-ci sessiyası 2018-ci ildə XXIII Qış Olimpiya Oyunlarının keçiriləcəyi Pxençxan (Cənubi Koreya) şəhərində təşkil ediləcək.

# Azərbaycan Prezidenti İlham Əliyev Milli Olimpiya Komitəsinin 25 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə iştirak edib

*(əvvəli 1-ci səhifədə)*



Azərbaycan Avropa Olimpiya Komitələrinin fəal üzvüdür. Bugünkü mərasimdə Avropa Olimpiya Komitələrinin rəhbərliyinin iştirakı əlbəttə ki, bizi çox sevindirir. Onu da qeyd etməliyəm ki, bu gün Bakıda Avropa Olimpiya Komitələrinin İcraiyyə Komitəsinin toplantısı, eyni zamanda, Milli Olimpiya komitələrinin forumu keçirilir.

Azərbaycanda Olimpiya Hərəkatı və idman uğurla, sürətlə inkişaf edir. Azərbaycan dünyada idman dövləti kimi tanınır. İdman Azərbaycanda dövlət siyasətidir. Dövlət bu istiqamətdə öz siyasətini apararkən idmanın hərtərəfli inkişafına nail ola bilmişdir. Qeyd etməliyəm ki, bütün müvafiq qurumlar, Milli Olimpiya Komitəsi, Gənclər və İdman Nazirliyi, idman cəmiyyətləri, federasiyalar, klublar bir məqsədi güdür ki, Azərbaycanda idman daha da inkişaf etsin, idmanın kütləviliyi daha da geniş vüsət alsın və idmançılarımız bizi beynəlxalq yarışlarda tez-tez sevindirsinlər. Bax, bu birgə fəaliyyət nəticəsində və idmana cavabdehlik daşıyan bütün qurumlar arasındakı koordinasiya sayəsində Azərbaycan beynəlxalq aləmdə idman sahəsində çox böyük uğurlara imza atmışdır.

Biz əlbəttə ki, ilk növbədə, idmanla məşğul olmaq üçün şərait yaratmalı idik və bu istiqamətdə dövlət investisiyaları hesabına Azərbaycanda bir çox müasir Olimpiya idman qurğuları tikilib istifadəyə verilmişdir. Təkcə onu demək kifayətdir ki, Azərbaycanın bölgələrində 50-yə yaxın müasir Olimpiya İdman Kompleksi tikilmişdir. Bakıda isə bu gün ən müasir idman infrastrukturu mövcuddur. Əvvəlki illərdə tikilmiş idman obyektləri əsaslı təmir olundu və eyni zamanda, son illərdə bir neçə böyük stadion, idman zalı inşa edildi. Onların arasında əlbəttə ki, təxminən 70 min tamaşaçı yeri olan Olimpiya Stadionunu qeyd etməliyəm. Milli Gimnastika Arenası, Su İdmanı Sarayı və Bakı Atıcılıq Mərkəzinin tikintisi böyük investisiya tələb edən müasir idman qurğularıdır. Eyni zamanda, Bakıda idman şəhərciyi fəaliyyət göstərir. Bir sözlə, son illər ərzində həm bölgələrdə, həm Bakıda idmanın inkişafına, infrastruktur layihələrinə qoyulan vəsait öz nəticəsini verməkdədir.

Biz əlbəttə ki, idmanda əldə edilmiş nailiyyətlərlə fərəhlənirik. Çünki bizim idmançılarımız ölkəmizi beynəlxalq arenalarda layaqətlə təmsil edirlər. Azərbaycan ilk dəfə olaraq müstəqil dövlət kimi 1996-cı ildə Yay Olimpiya Oyunlarında iştirak etmişdir və o vaxt cəmi 1 medal qazanmışdır. Onun 20 il sonra Rio Yay Olimpiya Oyunlarında isə Azərbaycan idmançıları 18 medal qazanmışlar və medalların sayına görə komanda hesabında Azərbaycan 14-cü yerə layiq görülmüşdür. Bax, bu tərəqqi idmanın inkişafını göstərən ən gözəl amildir. Çünki Olimpiadadan-Olimpiadaya medallarımızın sayı artırdı və 18 medal qazanmaq doğrudan da çox böyük tarixi nailiyyətdir. Azərbaycan idmançıları, eyni zamanda, Avropa və dünya çempionatlarında böyük uğurlar qazanırlar. Bu il bizim iki idmançımız sərbəst güləş və boks üzrə üçüncü dəfə dünya çempionu olub. Bu da tarixi nailiyyətdir. Bir sözlə, bu gün Azərbaycan o ölkələrdəndir ki, onun çox güclü idman potensialı var. Həm infrastruktur, həm idmançıların hazırlığı, gənc idmançıların hazırlanması - biz bu məsələyə kompleks şəkildə yanaşırıq. Bir daha qeyd etmək istəyirəm ki, bütün müvafiq qurumlar bir nöqtəyə vurur, bir məqsədə qulluq edir və məhz buna görə də biz idmanda bu nailiyyətləri əldə edə bilmişik.

Biz beynəlxalq arenada - Beynəlxalq Olimpiya Komitəsi, Avropa Olimpiya Komitələri çərçivəsində də fəal iştirak edirik. Bizim beynəlxalq federasiyalarla da çox yaxşı əlaqələrimiz var. Təsadüfi deyil ki, Azərbaycanda demək olar ildə bir neçə dəfə mötəbər beynəlxalq yarış keçirilir. Bu günlərdə Bakı şəhərində qadınlar arasında voleybol üzrə Avropa çempionatı keçirilir. Azərbaycanda beynəlxalq yarışların keçirilməsi də artıq bir ənənəyə çevrilib. Biz buna öyrəşmişik və bu da əlbəttə ki, həm ölkəmizin potensialını göstərir, həm də beynəlxalq federasiyaların bizə olan inamını əks etdirir. Bu idman tədbirləri arasında mötəbər yarışlar bu gün xüsusilə qeyd etmək istərdim. Bakıda iki dəfə Formula-1 yarışı keçirilmişdir. Bu, tamaşaçı auditoriyasına görə Yay Olimpiya Oyunlarından sonra yəqin ki, ikinci idman yarışıdır. Bu yarışların auditoriyası 500 milyon insandır. Bakıda iki dəfə keçirilmiş "Formula-1" yarışı artıq "Formula-1" yarışları arasında özünəlayiq yer tuta bilib. Çünki bu, şəhər yarışıdır və tamaşaçılar üçün, televiziya ilə bu yarışı izləyənlər üçün həm yarış daha maraqlı keçir, eyni zamanda, şəhərimizin gözəlliyi yarım milyard insana təqdim olunur.

Azərbaycanda dünya, Avropa çempionatları keçirilir. Əlbəttə ki, mən 2015-ci ildə keçirilmiş birinci Avropa Oyunlarını xüsusi qeyd etməliyəm. Bu qərarı qəbul edən Avropa Olimpiya Komitələrinin rəhbərlərinə və üzvlərinə bir daha minnətdarlığımı bildirmək istəyirəm. O vaxt bu qərarın qəbul edilməsi bizə imkan verdi ki, bu Oyunları keçirək, öz imkanlarımızı göstərək və beləliklə, Avropa Oyunlarına start verək. Bilirsiniz ki, hazırlıq üçün bizim cəmi 2 il yarım vaxtımız var idi və deyə bilərəm ki, bu Oyunlar qısa müddət ərzində Yay Olimpiya Oyunlarının səviyyəsində keçirilmişdir. Bakıda bu Oyunlarda 50 ölkə, 5 mindən çox idmançı, nümayəndə heyətlərinin minlərlə üzvü, qonaqlar iştirak ediblər. Onu da qeyd etməliyəm ki, Azərbaycan bu Oyunlarda çox yaxşı nəticələr göstərmişdir, komanda hesabında idmançılarımız ikinci yerə layiq görülmüşlər. Bu Oyunlar bizim hamımızın xatirindədir, bu, gözəl bir idman və dostluq bayramı idi. O günlərdə yaşanan ab-hava əminəm ki, bundan sonra da bizim yaddaşımızdan silinməyəcək. Bu gözəl təcrübəni əldə edərək, Azərbaycan bu il IV İslam Həmrəyliyi Oyunlarını uğurla keçirib. Bu Oyunlarda 54 ölkə, 3 mindən bir qədər çox idmançı iştirak etmişdir. Bu Oyunlarda da Azərbaycan idmançıları öz güclərini göstərərək bu dəfə komanda hesabında, 54 ölkə arasında birinci yeri tuta bilmişlər. Bu Oyunlar da çox böyük müvəffəqiyyətlə keçdi. Həm Avropa Oyunlarında, həm də İslam Həmrəyliyi Oyunlarında iştirak etmiş idmançılar və qonaqlar əminəm ki, öz vətənlərinə ən xoş təəssüratlarla qayıtmışlar.



Bu Oyunların keçirilməsi həm ölkəmizin potensialını, həm bizim siyasətimizi, həm də imkanlarımızı göstərir. Çünki bu Oyunlar sadəcə olaraq idman yarışları deyil. İdman dostluğu möhkəmləndirən, xalqlararası münasibətləri gücləndirən önəmli bir amildir. Bir şəhərdə cəmi iki il ərzində həm Avropa, həm İslam oyunlarının keçirilməsi bizim sivilizasiyalararası dialoqa da verdiyimiz növbəti töhfə kimi qəbul edilməlidir.

Siz bilirsiniz ki, Azərbaycan bu istiqamətdə də dünya miqyasında çox böyük işlər görür. Azərbaycan bu gün dünyada multikulturalizmin mərkəzlərindən biri kimi özünü təsdiqləyib. Biz keçən ili Azərbaycanda "Multikulturalizm İli" elan etmişdik. Bu il isə "İslam Həmrəyliyi İli"dir. Bu iki təşəbbüs arasında sıx bağlılıq var. Yəni, biz, bu təşəbbüslə göstəririk və bildiririk ki, dünyada bütün məsələlər qarşılıqlı anlaşma, əməkdaşlıq şəraitində öz həllini tapmalıdır. Məhz Azərbaycan 2008-ci ildə "Bakı prosesi"nə start verdi. Bu gün "Bakı prosesi" BMT tərəfindən dəstəklənən çox geniş bir hərəkatdır. Məhz 2008-ci ildə Azərbaycan Avropa Şurasının mədəniyyət nazirlərinin toplantısına İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin mədəniyyət nazirlərini dəvət etmişdi. Beləliklə, birinci dəfə hər iki təşkilat bir yerdə toplantı keçirmişdir. "Bakı prosesi" o gündən bu günə qədər çox böyük məsafə qət etmişdir və bu gün beynəlxalq aləmdə çox yüksək qiymətləndirilir.

Yəni, idman ictimai həyatın önəmli amili kimi, əlbəttə, bundan sonra da öz rolunu oynayacaq. Azərbaycan idman yarışlarını keçirərkən, əlbəttə, eyni zamanda, bu məqsədi də güdür ki, idmançılar arasında, xalqlar arasında, ölkələr arasında münasibətlər qarşılıqlı etimad və hörmət əsasında qurulsun.

Bugünkü mərasim mənim üçün xüsusi əhəmiyyət daşıyır. Çünki mən iyirmi ildir ki, Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti kimi fəaliyyət göstərirəm. 1997-ci ildə Azərbaycan idman ictimaiyyəti bu etimadı mənə göstərib. Hesab edirəm ki, mən bu şərəfli missiyanı bu günə qədər icra edirəm. Baxmayaraq ki, o vaxtdan altı il sonra mən ölkə Prezidenti seçilmişəm. Əlbəttə ki, mənim məsuliyyətim böyük dərəcədə artıb. Ancaq Milli Olimpiya Komitəsinin prezidenti kimi mən çalışıram ki, idmanın inkişafı ilə bağlı bütün məsələlərə diqqət yetirim. İdmançıların bütün yarışları demək olar ki, diqqət mərkəzindədir. Mən o yarışları imkan daxilində izləyirəm. İdmançıların qayğıları, problemləri ilə daim maraqlanıram. Mənim həyatımın iyirmi ili artıq Olimpiya Hərəkatına, idmana həsr edilib.

Onu da qeyd etməliyəm ki, Azərbaycanda dövlət və ictimai təşkilatlar idmançıların məişət problemlərinin həllində də fəal iştirak edirlər. Hər il ilin yekunlarına görə, iyirmidən çox görkəmli idmançıya dövlət tərəfindən mənzillər, digər mükafatlar, təqaüdlər verilir. Yəni, biz daim çalışırıq ki, idmançılarımızı dəstəkləyək. Çünki bu gün idman Azərbaycanda, bizim cəmiyyətimizdə çox önəmli ictimai amilə çevrilib.

İdmançı olmaq çox şərəfli peşədir. İdmançılara cəmiyyətdə hörmət böyükdür. Onu da qeyd etməliyəm ki, bizim idmançılarımız həm idman yarışlarında, həm məişətdə özlərini ləyaqətlə aparırlar. İdmançılar, onların uğurları, onlara dövlət tərəfindən verilən qiymət və dəstək əlbəttə ki, uşaqları da idman bölmələrinə cəlb edir. Çünki uşaqlar da görürlər ki, əgər sən idmanda böyük uğur qazanarsansa, onda həm xalq, həm dövlət səni yüksək qiymətləndirəcək.

Beləliklə, bu gün Azərbaycanda yeniyetmə, uşaq idmanı da uğurla inkişaf edir. Qeyd etdiyim kimi, bütün bölgələrdə idmanla məşğul olmaq üçün gözəl şərait var. Bizim çempionlarımızın uğurlu çıxışları, onların qələbələri gəncləri də, uşaqları da əlbəttə ki, idmana cəlb edir. Hər dəfə bizim idmançılarımız beynəlxalq yarışlarda bayrağımızı qaldıranda hər bir vətənpərvər azərbaycanlı haqlı olaraq qürur hissi keçirir. Bu qələbələrə, bu qələbə sevincini xalqımıza bəxş etdiklərinə görə Azərbaycan idmançılarına bir daha minnətdarlığımı bildirmək istəyirəm.

Çıxışımın sonunda bir məsələyə də toxunmaq istərdim. Bu gün biz Azərbaycanda idman uğurlarımıza bir növ öyrəşmişik. Bəziləri elə hesab edirlər ki, elə də olmalıdır. Biz gərək keçmişə də baxaq, müqayisə də edək və görək ki, əgər medalların sayına görə o qədər də böyük ölkə olmayan, əhalisi o qədər də böyük olmayan Azərbaycan Rio Olimpiya Oyunlarında 14-cü yerə layiq görülürsə, bu, doğrudan da tarixi nailiyyətdir.

Bizim həmişə güclü idmançılarımız olub. Sovet vaxtında da Azərbaycan nümayəndələri xalqımızı SSRİ yığma komandalarında ləyaqətlə təmsil ediblər. Ancaq əlbəttə ki, indiki nailiyyətlərlə o vaxtkı nailiyyətlər müqayisəedilməz dərəcədə fərqlənir.

Bu gün biz müstəqil dövlət kimi medalların sayına görə dünya miqyasında 14-cü yerdəyik. Bu, nəyin hesabına mümkün olub? Əlbəttə, görülən işlər, apardığımız siyasət hesabına - bu barədə mən artıq öz fikirlərimi bildirdim. Mən görülən işlərin bir hissəsini qeyd etdim. Amma əsas səbəb və bunun əsas qaynağı bizim müstəqilliyimizdir. Biz 26 ildir ki, müstəqil ölkə kimi yaşayırıq, öz taleyimiz öz əlimizdədir. Azərbaycan xalqı, onun iradəsi bu gün bizim siyasətimizi şərtləndirir. Müstəqil siyasət aparan müstəqil Azərbaycan bütün başqa sahələrdə olduğu kimi, o cümlədən idman sahəsində də bu uğurlara imza atıb.

Bir neçə gün bundan əvvəl dünyanın aparıcı iqtisadi qurumu olan Davos Dünya İqtisadi Forumu ölkələrin iqtisadiyyatlarının rəqabətqabiliyyətliliyinin indeksini açıqlayıb. Azərbaycan il ərzində iki pillə irəli gedərək 37-ci yerdən 35-ci yerdə qərarlaşıb. Bu da MDB məkanında birinci yerdir. Yəni, 140-a yaxın ölkənin iqtisadiyyatları təhlil edilib. Onların arasında Azərbaycan - gənc müstəqil dövlət 35-ci yerdədir. Bu, nəyin hesabına mümkün olub? Düşünülmüş siyasət hesabına, xalq-iqtidar birliyi hesabına. Bunun təməlində bizim müstəqilliyimiz dayanır. Müstəqilliyimiz ən böyük xoşbəxtliyimizdir, ən böyük sərvətimizdir. Bu gün medallar qazanan, idman şöhrətimizi dünyada artıran idmançılarımızın böyük əksəriyyəti müstəqillik dövründə doğulub, onların hamısı müstəqillik dövründə formalaşıb.

Azərbaycan bundan sonra da müstəqillik yolu ilə uğurla gedəcək. Bizim gələcəkdə idman uğurlarımız daha da çox olacaq. Bütün idmançıları əldə edilmiş qələbələr münasibətilə təbrik edirəm və yeni qələbələr, uğurlar arzulayıram. Sağ olun.

x x x

Avropa Olimpiya Komitələrinin icraçı prezidenti Janez KOÇİJANÇİÇ çıxış edərək dedi:

- Azərbaycan Respublikasının Prezidenti, Zati-aliləri cənab İlham Əliyev. Hörmətli dostum, Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti cənab İlham Əliyev.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti hörmətli Mehriban xanım Əliyeva.

Avropa Olimpiya Komitələrinin rəsmiləri, hörmətli dostumuz gənclər və idman naziri Azad Rəhimov, Azərbaycan Milli Olimpiya Komitəsinin üzvləri, hörmətli milli federasiya üzvləri.

Mən böyük şərəf hissi ilə Azərbaycan Milli Olimpiya Komitəsinin 25-ci ildönümü ilə əlaqədar təşkil olunmuş bu mərasimdə qarşınızda çıxış edirəm. 25 illik tarixə nəzər salsaq görərik ki, Azərbaycan xalqının idman sahəsində əldə etdiyi nailiyyətlər fantastikdir. Siz Avropa Oyunlarında böyük sayda medallar qazandınız. İslam Həmrəyliyi Oyunlarında isə qazandığınız medalların sayı ondan da çox oldu. Cənab Prezident burada qeyd etdi ki, Olimpiya Oyunlarında 18 medal qazanılıb. Bu, bir daha onu göstərir ki, Siz qarşınıza qoyduğunuz ümumi məqsədə nail olmusunuz. Məhz bunu idmanı milli səviyyədə inkişaf etdirməklə, cəmiyyət daxilində idmanın daha da kütləviləşdirilməsi üçün çalışaraq Siz bir növ yeni bir səhifəni açmısınız. Sizi bu münasibətlə səmimi qəlbdən təbrik edirəm, 25 iliniz mübarək olsun! Siz çox gözəl iş aparmısınız.

İkinci məqam. Siz Bakıda birinci Avropa Oyunlarını keçirdiniz. Əslində, Sizin Avropa idman hərəkatına, Avropada Olimpiya Hərəkatına nə qədər böyük töhfə verdiyinizi yaxşı anlayırıq, biz bunu görürük. Biz növbəti Oyunları Minsk şəhərində keçirəcəyik. Lakin Azərbaycan bu ilkə imza atdı və birinci Oyunları keçirdi, ev sahibi oldu. Bu, ümumiyyətlə, Olimpiya Oyunlarının gələcəyinə verdiyiniz töhfə oldu. Çox sağ olun. Bu, yüksək dəyərləndirilən bir nailiyyət idi.

*(ardı 3-cü səhifədə)*

# Azərbaycan Prezidenti İlham Əliyev Milli Olimpiya Komitəsinin 25 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə iştirak edib

*(əvvəli 2-ci səhifədə)*

Üçüncü məqam. Mən bunu iftixar hissi ilə burada bildirirəm. Mən burada bu Mərkəzdə çıxış edirəm. Bu Mərkəz Azərbaycanın qurucusu ulu öndər Heydər Əliyevin, Sizin atanızın adını daşıyır. O, Azərbaycanın keçmişinin və indiki dövrünün təcəssümüdür. Təbii ki, xalqınız üçün bir çox nailiyyətlər həmin dövrdə əldə edilmişdir. Məsələn, bizim ölkədə bu cür tədbirlər əslində qısa olur, bir neçə gün çəkir. Lakin bu cür tədbirlərin keçirilməsi, müxtəlif beynəlxalq yarışların təşkil olunması sizdə silsilə halı alıb. Biz bilirik ki, yaxın vaxtlarda Siz, həmçinin gənclər arasında idman festivalı keçirəcəksiniz, digər tədbirlərə ev sahibliyi edəcəksiniz. Biz böyük məmnuniyyətlə yenidən Azərbaycana gələcəyik. Sizi bir daha təbrik edirik. Azərbaycan xalqı öz idman nailiyyətlərindən fərəhlənə bilər.

x x x

İcraçı prezident Janez Koçijançiç Azərbaycan Prezidenti İlham Əliyevə, birinci xanım Mehriban Əliyevaya və Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadəyə MOK-un yaranmasının 25 illik yubileyi münasibətilə Avropa Olimpiya Komitələrinin xüsusi mükafatlarını təqdim etdi.

Sonra Beynəlxalq Cüdo Federasiyasının prezidenti Marius VİZER çıxış edərək dedi:

- Azərbaycan Respublikasının Prezidenti, Zati-aliləri cənab İlham Əliyev.

Azərbaycanın birinci xanımı və Birinci vitse-prezidenti.

Avropa Olimpiya Komitələrinin icraçı prezidenti cənab Janez Koçijançiç, cənab Patrik Hikki, hörmətli qonaqlar, xanımlar və cənablar.

Mən Prezidenti və birinci xanımı, bütün Azərbaycan xalqını Azərbaycan Milli Olimpiya Komitəsinin 25-ci ildönümü, o cümlədən idman sahəsində və bütün digər sahələrdə qazandığınız uğurlara, həmçinin iqtisadi nailiyyətlərinizə görə təbrik etmək istəyirəm. Siz təhsildə, elmdə, ölkənizin gələcəyi ilə bağlı olan bir çox sahələrdə böyük nailiyyətlər əldə etmisiniz. Azərbaycan ilk Avropa Oyunlarını 2015-ci ildə keçirdi. 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunları burada təşkil olundu. Bir çox Avropa və dünya çempionatları da ölkənizdə keçirilib. Bu cür tədbirləri keçirərək Siz bu sahəyə böyük sərmayələr qoyursunuz, o cümlədən idmanı inkişaf etdirirsiniz, ölkənizin mədəni irsini daha da geniş coğrafiyada təbliğ edirsiniz. Mən sizin hamınıza beynəlxalq idman hərəkatına, Beynəlxalq Olimpiya Hərəkatına verdiyiniz töhfəyə görə təşəkkürümü bildirirəm. Sizin səyləriniz sayəsində bir çox yeni idmançılar formalaşır. Gələn il növbəti dünya çempionatımız keçiriləcək və sizin hamınızı böyük məmnuniyyətlə həmin çempionata dəvət edirəm.

Belə bir nüfuzlu tədbirdə iştirak etmək mənim üçün şərəf oldu. Cənab Prezident, mən beynəlxalq cüdo ailəsi adından şərəf hissi ilə Beynəlxalq Cüdo Federasiyasının ən yüksək mükafatını - qızıl medalını Sizə təqdim etmək istəyirəm. Çox sağ olun.

x x x

Marius Vizer Beynəlxalq Cüdo Federasiyasının ən yüksək mükafatını - qızıl medalını Azərbaycan Prezidenti İlham Əliyevə təqdim etdi.

x x x

Mükafatlara görə minnətdarlığını bildirən Azərbaycan Prezidenti İlham ƏLİYEV dedi:

- Əziz dostlar, mən bu mükafatlara görə prezident Koçijançiçə, prezident Vizerə təşəkkürümü bildirmək istəyirəm. Mən bunu idmanın və Olimpiya Hərəkatının inkişafındakı nailiyyətlərimizə verilən qiymət kimi dəyərləndirirəm. Avropa Oyunlarına hazırlıq zamanı bizə göstərdikləri böyük dəstəyə görə bir daha bu səhər görüşdüyüm bütün qonaqlarımıza, Olimpiya ailəsinin üzvlərinə minnətdarlığımı bildirmək istərdim. Birincisi, bu Oyunların bizdə keçirilməsinə imkan verən qərara görə, ikincisi də hazırlıqlar zamanı komandaların, Azərbaycan və Avropa komandalarının birlikdə necə sıx şəkildə işlədiyini bilirəm. Mən Avropada idmanın inkişafına verdiyi böyük töhfələrə görə cənab Patrik Hikkiyə şəxsən minnətdarlığımı bildirmək istərdim. Avropa Oyunlarının keçirilməsinə başlamaq onun təşəbbüsü idi. Patrik, təşəkkür edirəm. Bu səhər mən, həmçinin dostumuz Spiros Kapralosla görüşdüm. O, buraya “Dostluq” ordeni ilə gəlib. Bu orden ona mənim tərəfimdən Avropa Oyunlarının təşkilinə böyük töhfələrinə görə verilib. Təşəkkür edirəm. Mən Azərbaycanda cüdonun inkişafına verdiyi davamlı dəstəyə görə dostumuz, Cüdo Federasiyanın prezidenti Marius Vizerə təşəkkürümü bildirmək istərdim. Biz əldə etdiyimiz nəticələrlə fəxr edə bilərik. Biz dünya çempionatında çox yaxşı nəticələr göstərdik. Əlbəttə ki, növbəti dünya çempionatı tezliklə Bakıda keçiriləcək. Biz idmanın bu növünü daha da kütləviləşdirəcəyik. Həmçinin Avropa Olimpiya ailəsindəki dostlarımıza minnətdarlığımı bildirirəm. Sizi əmin edirəm ki, bizim qəlbimizdə sizin öz yeriniz var. Təşəkkür edirəm.

x x x

Mərasim konsert proqramı ilə davam etdi.

# Prezident İlham Əliyev Avropa Olimpiya Komitəsinin, beynəlxalq idman təşkilatlarının və xarici Milli Olimpiya komitələrinin rəhbərlərindən ibarət nümayəndə heyətini qəbul edib

*(əvvəli 1-ci səhifədə)*

Azərbaycanda bundan da çox Avropa miqyaslı idman tədbirləri keçiriləcək. Bakının iki ildən sonra futbol üzrə Avropa liqasının final oyununa ev sahibliyi etməsi bizdə qürur hissi oyadır. Əlbəttə ki, birlikdə qeyd etdiyimiz Avropa Oyunları da bizim üçün böyük bir məsuliyyət idi. Bu, həm də Avropa Olimpiya Hərəkatının inkişafı üçün vacib idi. Çünki Oyunlar ilk dəfə idi təşkil olunurdu və hesab edirəm ki, yüksək səviyyədə təşkil olundu.

İdman nailiyyətlərimizə gəldikdə, Azərbaycanda idmanın inkişaf etməsi bizi çox sevindirir, yaxşı nəticələr var. Bu il 2 atletimiz 3-cü dəfə dünya çempionu adına layiq görülüb. Gənc nəsil də daha fəaldır və idmanla məşğul olmağa çox həvəslidir. Çünki Azərbaycanda idmançı olmaq indi çox nüfuzlu peşədir. Əlbəttə ki, bu günlərdə keçirilən idman tədbirləri və sizin ölkəmizə səfəriniz idmanın inkişafını daha da stimullaşdırır.

x x x

Sonra Avropa Olimpiya Komitələrinin icraçı prezidenti Janez KOÇİJANÇİÇ çıxış edərək dedi:

- Cənab Prezident, xoş sözlərinizə görə çox sağ olun. Siz Avropa Olimpiya Hərəkatı üçün ən çox işlər görən dövlət başçısısınız və eyni zamanda, idmana ən çox diqqət göstərən Milli Olimpiya Komitəsinin prezidentisiniz. Biz bunu bilirik və yüksək qiymətləndiririk. Biz Azərbaycanda özümüzü evimizdəki kimi hiss edirik. Böyük uğur qazanmış Avropa Oyunlarının təşkilatçısı kimi insanlarınız çox yaxşı çalışdılar. Birinci vitse-prezident, birinci xanım Mehriban Əliyeva Təşkilat Komitəsinin sədri kimi böyük işlər gördü. Ümumiyyətlə, xalqınızın bununla bağlı səylərini yüksək qiymətləndiririk. İdman sahəsində sizin nailiyyətlər qazanmağınız bizi olduqca sevindirir. Həmçinin qadınlar arasında voleybol üzrə Avropa çempionatının necə nəticələnəcəyi də məni çox maraqlandırır. Çox sağ olun. Sizə səmimi qəlbdən təşəkkürümü bildirirəm.

Azərbaycan Prezidenti İlham ƏLİYEV dedi:

- Mən bir daha Avropa Oyunlarının Bakıda keçirilməsi ilə bağlı qərarın qəbul edilməsinə görə sizə təşəkkürümü bildirirəm. Bu, ölkəmiz üçün, Avropa Olimpiya Hərəkatı üçün çox vacib bir qərar idi. Bu, bizə nəyə qadir olduğumuzu nümayiş etdirmək imkanı yaratdı. Belə irimiqyaslı tədbirin keçirilməsi nisbətən gənc müstəqil ölkə üçün çox böyük əhəmiyyət kəsb edirdi. Bilirəm ki, Oyunların çox uğurla keçirilməsi ilə bağlı ümumi bir fikir formalaşıb. Bilirsiniz, bundan sonra isə bu, bizim üçün bir növ sınaq idi. Bu il nisbətən az idmançıların qatıldığı, lakin çoxsaylı ölkələrin iştirakı ilə İslam Həmrəyliyi Oyunlarını təşkil etdik. Bu Oyunlar da çox yaxşı səviyyədə təşkil olunmuşdu, çünki bizim artıq belə bir təcrübəmiz var idi. Beləliklə, biz maksimum potensialımızdan, könüllülərdən istifadə etdik və əlbəttə ki, heç bir yeni idman qurğusu tikmədik, çünki, hər şey hazır idi.



Əlbəttə ki, Avropa miqyasında idman tədbirlərinin Azərbaycanda təşkil olunması bizim üçün çox vacibdir. Məsələn, qadınlar arasında voleybol üzrə Avropa çempionatı Bakı və başqa bir şəhərdə - Göygöldə keçirilir. Göygöl kiçik, lakin yaxşı idman infrastrukturu olan şəhərdir. Bu, həmçinin regionlarda idmanın inkişafına təkan verir. Çünki biz regionlarda idmançı uşaq və gənclərə öz potensiallarını nümayiş etdirməyə imkan verən çox sayda idman arenaları və Olimpiya mərkəzləri tikmişik.

x x x

Daha sonra Avropa Voleybol Konfederasiyasının prezidenti Aleksandar BORİÇİÇ çıxış edərək dedi:

- Cənab prezident.

Xanımlar və cənablar.

İlk növbədə mən Avropa Voleybol Konfederasiyası adından şəxsən Sizə göstərdiyiniz dəstəyə görə təşəkkürümü bildirmək istəyirəm. Ötən il bizim görüşümüz olmuşdu və Siz voleybol üzrə Avropa çempionatına dəstək göstərəcəyinizi vəd etmişdiniz. Qadınlar arasında voleybol üzrə Avropa çempionatı yüksək səviyyədə keçirilir.

Aleksandar Boriçiç qadın voleybolçular arasında Avropa çempionatının Azərbaycanın regionlarında da keçirilməsinin gələcək idmançıların formalaşmasında mühüm amil olduğunu və bu tədbirin ölkəmizdə yüksək səviyyədə təşkil edildiyini vurğulayaraq dedi:

- Biz hesab edirik ki, bununla Siz gələcəyə yaxşı sərmayə yatırdınız, çünki çox sayda gənc qızlar voleybol oynamağa başlaya bilərlər. Biz Sizinlə birlikdə məktəblərdə həyata keçirilən layihələrə sərmayə yatırmaq istəyirik. Siz Avropa Oyunlarını əsl Olimpiya Oyunları səviyyəsində təşkil etdiniz. Ölkənizdə keçirilən voleybol çempionatı da böyük əhəmiyyət daşıyır. Mən şəxsən Sizə, hökumətinizə, Gənclər və İdman Nazirliyinə, Milli Olimpiya Komitəsinə və Azərbaycan Voleybol Federasiyasına təşəkkür etmək istəyirəm. Ölkənizdə idmanın voleybol növünün yaxşı gələcəyi var. Çox sağ olun.

x x x

Azərbaycanın beynəlxalq mötəbər idman yarışlarına ev sahibliyini bir daha məmnunluqla qeyd edən və nüfuzlu beynəlxalq futbol yarışlarının ölkəmizdə keçirilməsinin də önəmini vurğulayan Prezident İlham ƏLİYEV dedi:

- Sözsüz ki, biz Azərbaycanda daha çox tədbirlər keçirəcəyik. Çünki qeyd etdiyim kimi, Avropa Çempionlar Liqası həqiqətən də böyük bir məsuliyyət və bizim futbolumuza çox böyük bir dəstəkdir. Həmçinin 2020-ci ildə Bakıda futbol üzrə Avropa çempionatının dörddəbir final oyunları keçiriləcək. Bakı seçilmiş 13 Avropa şəhərindən biridir. Əlbəttə ki, ilk dəfə olaraq bizim “Qarabağ” futbol klubu Çempionlar Liqasının qrup mərhələsinə yüksəlmişdir.

x x x

Daha sonra Belarusun Milli Olimpiya Komitəsinin baş katibi Georgi KATULİN çıxış edərək dedi:

- Hörmətli İlham Heydər oğlu, icazə verin, dövlət başçısı Aleksandr Lukaşenkonun adından fəxri missiyanı yerinə yetirərək bu əlamətdar hadisə münasibətilə Sizi təbrik edim, ikinci Avropa Oyunlarının keçirilməsində bizə göstərdiyiniz köməyə görə minnətdarlığımı bildirim. Düşünürəm ki, bizə göstərdiyiniz nümunəni biz də həyata keçirə biləcəyik. Zənnimcə, sizin qədər yüksək səviyyədə edə bilməsək də, çalışacağıq ruh yüksəkliyi ilə edək ki, Sizin göstərdiyiniz kömək hədər getməsin. Çox sağ olun. İcazə verin, Prezidentin minnətdarlığını Sizə çatdırım.

Sonda xatirə şəkli çəkdirildi.

# Bakıda MDB və Baltikyanı ölkələrin, Gürcüstan Milli Olimpiya komitələrinin forumu işə başlayıb



*(əvvəli 1-ci səhifədə)*

Azərbaycanın gənclər və idman naziri Azad Rəhimov ölkəmizdə Milli Olimpiya Komitəsinin yaradılmasının 25 illiyinin qeyd edildiyini bildirib. Nazir atletletlərimizin beynəlxalq arenada qazandıqları nailiyyətlərdən və respublikamızda Olimpiya hərəkatının inkişafından söhbət açıb. Forumda birgə fəaliyyət, tibbi təminat məsələləri, habelə idman bazalarının və mərkəzlərinin istifadəsi və təlim-məşq proseslərinin təşkilində qarşılıqlı fəaliyyət, beynəlxalq idman qurumları çərçivəsində əməkdaşlığın perspektivləri müzakirə olunur. Hesabat məruzələrindən sonra forum iştirakçıları Olimpiya Hərəkatı, Olimpiya və Avropa oyunları, “Olimpiya Gündəliyi 2020”, idmanın təşviqi və digər mövzularda müzakirələr aparıblar.

Qeyd edək ki, bu forumla paralel olaraq Bakıda Avropa Olimpiya Komitələri İcraiyyə Komitəsinin iclası da keçirilir.

# Bakıda Dünya Boks Şurasının 55-ci dünya konvensiyası keçiriləcək

***Oktyabrın 2-də Bakıda Dünya Boks Şurasının (WBC) 55-ci dünya konvensiyası işə başlayacaq. Bu mötəbər idman tədbirində 164 ölkədən 500-dək nümayəndənin iştirakı gözlənilir.***

Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, oktyabrın 6-dək davam edəcək tədbirdə WBC-ə üzv ölkələrin rəsmiləri, müvafiq federasiyaların rəhbərləri, idman menecerləri, keçmiş və hazırkı çempionlar iştirak edəcəklər. Tanınmış idmançılar arasında Evander Holifild, Konstantin Tzyu, Yuri Arbaçakov, Nasim Hamed, Erik Morales, Nino Benvenuti, Vitali Kliçko, Gennadi Qolovkin, Srisaket Sor Runqvisainin ölkəmizə gələcəyi gözlənilir. Bundan başqa 55-ci dünya konvensiyasında WBC-nin prezidenti Maurusio Sulaimanın hesabat xarakterli çıxışı nəzərdə tutulub. Dörd günlük tədbirin birinci günündə Reytinq Komitəsinin və Hakimlər Şurasının qapalı iclasları keçiriləcək. Növbəti günlərdə isə dünya təsnifatları, icbari döyüşlərin təqvim planının işlənilməsi, tibbi heyət və hakimlər üçün seminarlar, qaydalara yenidən baxılması və əlavələrin edilməsi, eyni zamanda, müxtəlif nominasiyalar üzrə mükafatların verilməsi nəzərdə tutulub. Bununla yanaşı, məşhur boksçuların kimsəsiz uşaq evinə baş çəkməsi də tədbirin proqramına daxildir. Şuranın toplantısı çərçivəsində Afrika Boks Cəmiyyəti, Şərqi və Sakit Okean Boks Federasiyası və Asiya Boks Şurasının görüşləri də təşkil olunacaq.




*Novosibirskdə idman gimnastikası üzrə Olimpiya çempionu Yevgeni Podqornının mükafatları uğrunda 12-ci ümumrusiya turniri keçirilir.*

# Gənc gimnastlarımız qızıl medal qazanıblar

Gimnastlarımız turnirdə uğurla çıxış edirlər. Gənc idmançılarımız Əli Xəlilov və Hüseyn Xəlilov turnirdə fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.

Gənc azərbaycanlı gimnastlara qızıl medalları Olimpiya çempionu, Novosibirsk vilayətinin Mədəniyyət, Elm, İdman və Gənclər Siyasəti Komitəsi sədrinin müavini Yevgeni Podqornı təqdim edib.

Qeyd edək ki, builki turnirdə Rusiyanın bütün regionlarından, eləcə də Azərbaycan, Qazaxıstan, Özbəkistan və digər ölkələrdən güclü gimnastlar iştirak edirlər.




# Kosovoda daha bir medal

***Kosovonun paytaxtı Priştinada keçirilən 15 və 17 yaşlı yeniyetmə ağırlıqqaldıranlar arasında Avropa birinciliyi davam edir.***

Yarışda 40-a yaxın ölkədən 305 atlet (175 oğlan və 130 qız) medallar uğrunda mübarizə aparır. 15 yaşınadək atletlərin mübarizəsində təmsilçimiz Tarmenxan Babayev (85 kq) birdən qaldırma hərəkətində hər üç yanaşmanı uğurla yerinə yetirib. Toplamda 130 kiloqramı ram edən atletimiz ən yaxın izləyicisi bolqarıstanlı Stefço Xristovu 15 kiloqram qabaqlayaraq bu hərəkətdə birinci olub. Tarmenxan Babayev təkanla qaldırma hərəkətində daha yaxşı çıxış edib. O, ilk yanaşmada 150 kq çəkini ram edib. Bununla da idmançımız macarıstanlı atlet Adrian Terebesinin bu ilin aprelində Tailandda keçirilən yeniyetmələrin dünya birinciliyində müəyyənləşdirdiyi Avropa rekordunu (146 kq) yeniləyib. İdmançımız eyni zamanda, yunanıstanlı Evangelios Qaliatsatosun 2015-ci ildə İsveçdə keçirilən yeniyetmələrin Avropa birinciliyində bu çəki dərəcəsi üzrə yarışın yekununda müəyyənləşdirdiyi Avropa rekordunu (276 kq) da təzələyib. Atletimiz ikinci yanaşmasında 155 kiloqramı qaldıraraq həm bu hərəkətdə, həm də toplamda daha iki rekordu yeniləyib. Sonuncu yanaşmasında 161 kiloqramın da öhdəsindən gələn idmançımız rekordlarına ikisini də əlavə edib.

Atletimiz toplam 291 kiloqram (130+161) nəticə ilə Avropa birinciliyində birinci yeri tutub. Tarmenxan Babayev 15 yaşınadək atletlər arasında altı Avropa rekordunu yeniləyərək böyük uğura nail olub. Beləliklə, Kosovodakı yarışda Rüstəm Qasımov və Səbinə Əzimovadan sonra Tarmenxan Babayev də qızıl medal qazanaraq fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

# Karateçilərimiz Rumıniyada uğurla yarışıblar

Rumıniyanın paytaxtı Buxarestdə qoju-ryu karate üzrə dördüncü dünya çempionatı keçirilib. VKC növləri üzrə dünya çempionatında Azərbaycanı milli federasiyanın prezidenti Nurəddin Quliyevin rəhbərliyi ilə 9 idmançı təmsil edib. Komandamızın üzvləri çempionatda 3 qızıl, 1 gümüş və 3 bürünc medal qazanıblar. Fəxri kürsünün ən yüksək pilləsinə böyüklərin yarışında Ənvər Nemətov (79 kq), Orxan Süleymanov (84 kq), veteranların yarışında isə Həsən Həsənov qalxıblar.

Qeyd edək ki, Ənvər Nemətov və Orxan Süleymanov üçüncü dəfə çempion adını qazanıblar.

# Olimpiya mükafatçımız Qran-pri turnirində də fərqləndi

Mərakeşin paytaxtı Rabatda taekvondo üzrə keçirilən Qran-pri turniri başa çatıb. Azərbaycan millisi G4 kateqoriyalı yarışı bir bürünc medalla başa vurub. Komandamıza yeganə mükafatı Milad Beiqi Herçəqani qazandırıb. 80 kq çəki dərəcəsində dayanq üzərinə çıxan Olimpiya mükafatçımız yarımfinalda Seif Essaya (Misir) məğlub olaraq, 3-cü yerlə kifayətlənib. Komandamızın digər üzvləri Ayxan Tağızadə və Məhəmməd Məmmədov (hər ikisi 68 kq) isə yarımfinala vəsiqə uğrunda qarşılaşmalarda məğlub olublar. Yarışda qalib gələn idmançı aktivinə 40, ikinci yerin sahibi 24, üçüncü yerə çıxan idmançılar isə 14,4 reytinq xalı əlavə ediblər.



# "Qarabağ" minimum hesabla məğlub oldu

***UEFA Çempionlar Liqasında (ÇL) qrup mərhələsinin II turuna yekun vurulub. Ölkəmizi mötəbər turnirdə təmsil edən "Qarabağ" doğma azarkeşlər önündə "Roma" klubunu sınağa çəkib. Maraqlı mübarizə şəraitində keçən matç qonaqların minimum hesablı qələbəsi ilə başa çatıb.***



## UEFA Çempionlar Liqası

**II tur**

**C qrupu**

**"Qarabağ" (Azərbaycan) - "Roma" (İtaliya) - 1:2**

**Qollar:** Pedro Enrike, 28 - Manolas, 7, Dzeko, 15.

**Hakimlər:** Artur Dias, Rui Tavares, Paulo Soares, Bruno Rodriqes (hamısı Portuqaliya).

*27 sentyabr. Bakı. Olimpiya Stadionu. 67 200 tamaşaçı.*

**"Atletiko" (İspaniya) - "Çelsi" (İngiltərə) - 1:2**

**Qollar:** Qrizman, 40 (pen.) - Morata, 60, Batşuay, 90+4.

| | O | Q | H | M | T | X |
|---|---|---|---|---|---|---|
| 1. Çelsi | 2 | 2 | 0 | 0 | 8-1 | 6 |
| 2. Roma | 2 | 1 | 1 | 0 | 2-1 | 4 |
| 3. Atletiko | 2 | 0 | 1 | 1 | 1-2 | 1 |
| 4. Qarabağ | 2 | 0 | 0 | 2 | 1-8 | 0 |

Bu görüş Azərbaycan futbolu tarixinə ÇL-in ölkəmizdə keçirilən ilk qarşılaşması kimi düşüb. İndiyədək yalnız təsnifat mərhələsi görüşlərini izləyən futbolsevərlər qitənin ən nüfuzlu klub turnirinin əsas raundunu birbaşa yerli stadionda görüblər. Bakı Olimpiya Stadionunda təşkil olunan tarixi qarşılaşma qonaqların 1:2 hesablı qələbəsi ilə başa çatıb.

70 minə yaxın azarkeşin izlədiyi qarşılaşma "Roma"nın qolu ilə başlayıb. Artıq oyunun 7-ci dəqiqəsində qapıçı İbrahim Şehiçin çıxışda səhvini italiyalılar bağışlamayıblar. Yunanıstanlı müdafiəçi Kostas Manolas fərqlənib. Qoldan cəmi 8 dəqiqə sonra fərq iki topa çatıb. Bosniyalı Edin Dzeko müdafiəçini keçərək Şehiçlə təkbətək çıxıb və həmverlisini məyus edib.

Bundan sonra bir qədər fəallaşan çempionumuz hücumlarının sayını artırıb. Bunun nəticəsi olaraq, təmsilçimiz hesab arasındakı fərqi azaldıb. Oyunun 28-ci dəqiqəsində Dino Ndlovunun ötürməsini Pedro Enrike qapıdan keçirib - 1:2.

Fasilədən sonra matç qarşılıqlı hücumlar şəraitində keçib. Lakin ilk hissədəki hesab sonadək dəyişməz qalıb.

Qrupun digər oyununda "Atletiko" İngiltərənin "Çelsi" klubu ilə münasibətlərinə aydınlıq gətirib. Hesabı meydan sahibləri açsa da, bu nəticəni sonadək qoruya bilməyiblər. Qonaqların vurduğu 2 qol onlara 3 xal qazandırıb.

Qeyd edək ki, Bakıdakı oyun iki rekordla əlamətdar olub. Bakı Olimpiya Stadionundakı görüşdə 67 min 200 tamaşaçı qeydə alınıb. Bu isə o deməkdir ki, 68 min 700 tamaşaçı tutumuna malik arenada anşlaqın yaşanması üçün cəmi 1500 nəfər çatmayıb. Amma bu göstərici birdən-birə iki rekordla nəticələnib. Belə ki, "Qarabağ" - "Roma" matçı Azərbaycan futbolu tarixində ən çox tamaşaçı toplayan görüş olub. Bu matç EURO-2016-nın seçmə mərhələsinin Azərbaycan - İtaliya görüşünü kölgədə qoyub. 2015-ci il oktyabrın 10-da keçirilən matçda 48 min azarkeş qeydə alınmışdı.

"Qarabağ" - "Roma" görüşü həm də Çempionlar Liqasının II turunun ən çox izlənən matçı olub. Bakı Olimpiya Stadionundakı oyun ilk günün "Borussiya" - "Real" matçını geridə qoyub. Dortmundda 65 min 849 tamaşaçı olmuşdu.




**Oyundan sonra**

***Tahir Gözəl ("Qarabağ" klubunun vitse-prezidenti):*** "Hava soyuq olsa da, arenada möhtəşəm bir enerji var idi. Oyunu 55 mindən çox azarkeş izləyirdi. Təəssüf ki, ilk dəqiqələrdə buraxdığımız səhvlər bizə baha başa gəldi. Rəqib də güclü komandadır. Səhvlərimizi bağışlamadı. Düşünürəm ki, biz qol vurduqdan sonra oyun tam dəyişdi. Bu gün meydanda mübarizə aparan, döyüşən, qeyrətli bir komanda gördüm. Klubu güclü edən onun ruhudur. Bizi təkcə çoxsaylı azarkeşlər deyil, televiziyada, internetdə milyonlarla adam izləyirdi. Biz buranı qürur hissi ilə tərk edirik".

***Qurban Qurbanov ("Qarabağ" klubunun baş məşqçisi):*** "Bizim üçün ağır oyun oldu. Xüsusən də, matçın əvvəli. İlk dəqiqələrdən rəqib hansı ustalığa malik olduğunu göstərdi. Amma 0:2-dən sonra futbolçularımız daha diqqətli oynadılar, rəqibi yaxşı tanıdılar. Oyunçulardan razı qaldım. Evdə ilk oyun olduğundan, xal qazanmağa çalışırdıq. İstəyirdik ki, azarkeşlərimizi sevindirək. Amma "Roma" layiqli qələbə qazandı. Azarkeşlərimizə də bizi sona qədər dəstəklədikləri üçün təşəkkür edirəm".

***Eysebio di Franşesko ("Roma" klubunun baş məşqçisi):*** "İlk hissə üstünlüyümüz şəraitində keçsə də, ikinci hissədə çətin anlar yaşadıq. "Qarabağ" qapımız qarşısında qol vəziyyətləri yaratdı. Dünən "Qarabağ"ın güclü komanda olduğunu elə-belə deməmişdim. Bu gün bir daha şahid olduq ki, "Qarabağ" çox güclü rəqibdir. Bizə də çox çətin anlar yaşatdılar".

Olimpiya dünyası

Baş redaktor:
M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
H/H AZ79IBAZ38090019449333849204
M/H 0137010002944
KOD 805250
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 20 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı və cümə günləri 6150 nüsxə ilə çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.

*E-mail:*
olimpiya_dunyasi@mail.ru
*Ünvan:*
Bakı şəhəri,
2-ci sülh döngəsi, 2a.
*Tel.:* 564-90-49; 564-90-54; 564-74-19